# “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 158-VQD nömrəli Qanununun tətbiqi və “Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası”nın təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 158-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Müəyyən edilsin ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 1.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

2. “Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası” təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən “Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası”nın 3.1.1-ci yarımbəndinə uyğun olaraq, satınalan təşkilatların ərzaq məhsullarına tələbatı barədə məlumatların formasını bir ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. həmin Qaydanın 3.1.2-ci yarımbəndinə uyğun olaraq, satın alınması nəzərdə tutulan ərzaq məhsulları, həmin məhsulların *qiyməti, növü, miqdarı* və satınalma şərtləri (o cümlədən, satınalma dövriliyi) barədə elanın formasını bir ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;[1]

3.3. həmin Qaydanın 3.9-cu bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə tədarük və təchizat agenti arasında, satınalan təşkilatlarla tədarük və təchizat agenti arasında və tədarük və təchizat agenti ilə ərzaq məhsullarının istehsalçıları və ya satıcıları arasında bağlanılan müqavilələrin nümunəvi formalarını bir ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.4. həmin Qaydanın 4.2-ci bəndinə uyğun olaraq, satınalan təşkilatlarla tədarük və təchizat agenti arasında, tədarük və təchizat agenti ilə ərzaq məhsullarının istehsalçıları və ya satıcıları arasında bağlanılan müqavilələr barədə məlumat formasını bir ay müddətində müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.5. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.7. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.8. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

4. *“Aqrar tədarük və təchizat” Açıq Səhmdar Cəmiyyəti:*[2]

~~4.1. bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən “Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası”na uyğun olaraq “Satınalan təşkilatların ərzaq məhsullarına tələbatı” elektron portalını Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birlikdə yaratsın və onun istifadəyə verilməsini iki ay müddətində təmin etsin;~~[3]

4.2. bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən “Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası”nın müddəalarının və “*Ərzaq məhsullarının dövlət sifarişi ilə satın alması*” elektron portalının iş prinsipinin izahı ilə bağlı mütəmadi olaraq kütləvi informasiya vasitələrində məlumat verilməsini, habelə sosial reklamların hazırlanmasını və yayılmasını təmin etsin.[4]

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən “Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası”nın 3.3-cü bəndinə uyğun olaraq, satınalan təşkilatlar üzrə ərzaq məhsullarının dəyərinin satınalan təşkilatlara ayrılması barədə məlumatın formasını bir ay müddətində müəyyən etsin.

6. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 11 aprel 2016-cı il
859

Azərbaycan Respublikası Prezidentinin
2016-cı il 11 aprel tarixli 859 nömrəli Fərmanı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası**

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 1.2-ci maddəsinə əsasən hazırlanmışdır və dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının (dövlət taxıl fondu üçün alınan buğda istisna olmaqla) mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması qaydasını tənzimləyir.

1.2. Bu Qaydanın məqsədi kənd təsərrüfatı məhsullarının istehsalını və (və ya) emalını stimullaşdırmaq, kənd təsərrüfatı məhsulları istehsalçılarının inkişafını təmin etmək, ərzaq məhsullarının keyfiyyətini daha da artırmaq, dövlət vəsaitlərindən səmərəli istifadəni təmin etmək, regionlarda kənd təsərrüfatı ilə məşğul olan əhalinin sosial rifahının yaxşılaşdırılmasına zəmin yaratmaq, dövlət sifarişi ilə ərzaq məhsullarının satın alınmasının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsinin prosedur və prinsiplərini, həmçinin bu məhsulların dəyərinin hesablanması ilə bağlı meyarları və digər prinsipləri müəyyənləşdirməkdir.

## 2. Əsas anlayışlar

2.0. Bu Qaydalarda istifadə olunan əsas anlayışlar aşağıdakılardır:

2.0.1. ərzaq məhsulları – insanın təbii və ya emal olunmuş halda istifadə etdiyi bitki və ya heyvan mənşəli qida məhsulları;

2.0.2. satınalan təşkilat – dövlət büdcəsinin vəsaitləri hesabına ərzaq məhsullarını satınalan dövlət müəssisə və təşkilatları (idarələri);

2.0.3. tədarük və təchizat agenti – Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan, *ərzaq məhsullarının dövlət sifarişi ilə bağlı alqı-satqı əməliyyatlarını "Ərzaq məhsullarının dövlət sifarişi ilə satın alınması" elektron portalı vasitəsilə aparılmasını, eləcə də bu sahədə fəaliyyətin təşkili ilə bağlı digər tədbirlər görülməsini* təmin edən hüquqi şəxs*;*

*2.0.4. "Ərzaq məhsullarının dövlət sifarişi ilə satın alınması" elektron portalı (bundan sonra – elektron portal) – satınalan təşkilatlar tərəfindən ərzaq məhsullarının dövlət büdcəsinin vəsaiti hesabına satın alınması ilə bağlı tələb və təkliflərin yerləşdirildiyi, alqı-satqı əməliyyatlarının təşkil edildiyi "Elektron kənd təsərrüfatı" informasiya sisteminin altsistemi.*[5]

## 3. Ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada satın alınması proseduru

3.1. Ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada satın alınması proseduru aşağıdakı qaydada həyata keçirilir:

3.1.1. satınalan təşkilatlar növbəti il üzrə ərzaq məhsullarına tələbatları barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi formaya uyğun məlumatları hər il iyulun 1-dək *elektron portalda yerləşdirirlər*. Satınalan təşkilatlar tərəfindən növbəti il üzrə ərzaq məhsullarına tələbatlar həmin satınalan təşkilatlara bu məqsədlər üçün dövlət büdcəsindən ayrılmış vəsaitlər nəzərə alınmaqla müəyyən edilir. *Satınalma şərtlərini, bu Qaydanın 1.2-ci bəndində qeyd edilən məqsədlər nəzərə alınmaqla, Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir;*[6]

3.1.2. *tədarük və təchizat agenti* satın alınması nəzərdə tutulan ərzaq məhsulları, həmin məhsulların *qiyməti, növü, miqdarı* və satınalma şərtləri (o cümlədən, satınalma dövriliyi) barədə elanı Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi formada hər il avqustun 1-dək elektron portalda yerləşdirir;[7]

*3.1.3. ərzaq məhsullarının hər bir növü üzrə satınalma qiyməti ötən il iyulun 1-dən cari il iyulun 1-dək olan dövr üzrə orta statistik satış qiymətinin növbəti il üçün proqnozlaşdırılan inflyasiya səviyyəsinə vurulması ilə müəyyən edilir. İl ərzində bu qiymətlər yalnız şəraitin əhəmiyyətli dərəcədə dəyişməsinin qiymətlərə təsir göstərdiyi hallarda yenilənir. Ərzaq məhsullarının hər bir növü üzrə orta statistik satış qiyməti barədə məlumatları Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, növbəti il üçün proqnozlaşdırılan inflyasiya səviyyəsi barədə məlumatları isə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi hər il iyulun 20-dək Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə təqdim edirlər;*

*3.1.4. tədarük və təchizat agenti hər il sentyabrın 1-dək satın alınması nəzərdə tutulan ərzaq məhsullarının hər növü üzrə yerli istehsalçılar və onların istehsal potensialı barədə məlumatları Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin dövlət aqrar inkişaf mərkəzləri vasitəsilə toplayır və elektron portalda yerləşdirir. Satın alınması nəzərdə tutulan ərzaq məhsulunu satmaq niyyəti olan, lakin barəsində elektron portalda məlumat olmayan istehsalçı bilavasitə tədarük və təchizat agentinə müraciət edə bilər. Müraciət edildiyi halda həmin istehsalçı ilə bağlı məlumatlar dərhal elektron portala əlavə edilməli və müraciət edən şəxsə bu barədə məlumat verilməlidir. Ərzaq məhsullarının istehsalçıları satmaq niyyətində olduqları məhsulların növü, qiyməti və miqdarı barədə məlumatı hər il sentyabrın 1-dək portalda yerləşdirirlər;*

*3.1.4-1. ərzaq məhsullarının satıcıları satmaq niyyətində olduqları məhsulların növü, qiyməti və miqdarı barədə məlumatı hər il sentyabrın 1-dək portalda yerləşdirirlər;*[8]

*3.1.5. tədarük və təchizat agenti elektron portalda barəsində məlumatlar yerləşdirilən istehsalçıların, eləcə də*

*satıcıların fəaliyyətinin monitorinqini “Elektron kənd təsərrüfatı” informasiya sistemi və (və ya) yerində baxış vasitəsilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada hər il oktyabrın 1-dək aparır və həmin monitorinqin nəticələrini elektron portala daxil edir;*

*3.1.6. ərzaq məhsullarının satın alınmasına dair bu Qaydanın 3.1.2-ci yarımbəndində nəzərdə tutulan elanın şərtlərinə uyğun olan təklif satınalan təşkilatın həmin məhsullara tələbatından az olduqda, bütün iştirakçıların təklifləri qəbul edilir və bu halda satınalan təşkilat ərzaq məhsullarına olan tələbatın təklifdən artıq olan hissəsini bu Qaydanın 3.1.3-cü yarımbəndinə uyğun olaraq müəyyən edilmiş qiymətlər çərçivəsində digər şəxslərdən ala bilər;*[9]

3.1.7. ərzaq məhsullarının alınmasına dair bu Qaydanın 3.1.2-ci yarımbəndi ilə müəyyən edilən elanın şərtlərinə uyğun gələn təklif *satınalan təşkilatın həmin məhsullara tələbatından çox olduqda mikro, kiçik və orta sahibkarlıq subyektləri olan* yerli istehsalçılara üstünlük verilir;[10]

~~3.1.8 ərzaq məhsullarının alınmasına dair bu Qaydanın 3.1.2-ci yarımbəndi ilə müəyyən edilən elanın şərtlərinə uyğun gələn təklif həmin məhsullara tələbatdan az olduqda, tədarük və təchizat agenti tələbatın təklifdən artıq hissəsini bu Qaydanın 3.1.3-cü yarımbəndində müəyyən edilmiş qiymətlər çərçivəsində digər şəxslərdən ala bilər, bu mümkün olmadıqda isə özü idxal edə bilər.~~[11]

3.2. *Satınalan təşkilatlarla* ərzaq məhsullarının istehsalçıları və satıcıları arasında hər il *noyabrın* 1-dək növbəti il üçün müqavilə bağlanır.[12]

~~3.3. Növbəti il üçün ərzaq məhsullarına dair tələbat müəyyən olunduqdan sonra satınalan təşkilatlar üzrə həmin məhsulların dəyərinin 25 faizindən az olmamaqla satınalan təşkilatlara avans məbləğinin ayrılması barədə oktyabrın 5-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin müəyyən etdiyi formada *“Aqrar tədarük və təchizat” Açıq Səhmdar Cəmiyyəti* Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə məlumat verir.~~

~~3.4. Satınalan təşkilatlar imzalanmış müqavilənin bir nüsxəsini və avans məbləğinin ödəniş tapşırığını dövlət xəzinədarlıq orqanlarına hər il oktyabr ayının 5-dək təqdim edirlər. Qeyd olunan sənədlər dövlət xəzinədarlıq orqanlarına elektron qaydada da təqdim oluna bilər. Dövlət xəzinədarlıq orqanları hər il oktyabrın 10-dək avans məbləğini satınalan təşkilatların hesabına köçürürlər.~~

~~3.5. Satınalan təşkilatlar növbəti ildə alınacaq ərzaq məhsulları üçün ayrılmış vəsaitləri cari ilin oktyabrın 20-dək tədarük və təchizat agentinin hesabına köçürürlər.~~[13]

*3.6. Tədarük və təchizat agentinin vəzifələri aşağıdakılardır:*

*3.6.1. elektron portalın operatorunun funksiyalarını həyata keçirmək və elektron portaldan istifadəyə görə satınalan təşkilatlarla ərzaq məhsullarının istehsalçıları və ya satıcıları arasında bağlanılmış müqavilə üzrə satılmış ərzaq məhsullarının dəyərinin 10 (on) faizə qədərini satınalan təşkilatdan almaq;*

*3.6.2. satınalan təşkilatlar tərəfindən bu Qaydanın 3.1.6-cı və 3.1.7-ci yarımbəndlərinin tələblərinə riayət olunmasını təmin etmək;*

*3.6.3. satınalan təşkilatların müraciəti və (və ya) bu Qaydanın 3.1.5-ci yarımbəndinə uyğun olaraq aparılan monitorinqin nəticələri əsasında satınalma və müqavilə şərtlərinə əməl etməyən ərzaq məhsulları istehsalçılarının və ya satıcılarının təkliflərinin bir il ərzində elektron portalda yerləşdirilməsini məhdudlaşdırmaq.*

*3.7. Bu Qaydanın 3.6.1-ci yarımbəndinə uyğun olaraq ödənilən vəsaitin hər bir müqavilə üzrə məbləğini tədarük və təchizat agenti satınalma dövründə bir dəfə müəyyən edir.*

*3.8. Ərzaq məhsulları istehsalçılarının və ya satıcılarının təkliflərinin elektron portalda yerləşdirilməsi bu Qaydanın 3.6.3-cü yarımbəndinə uyğun olaraq məhdudlaşdırıldığı halda, satınalan təşkilat ərzaq məhsullarını bu Qaydanın 3.1.3-cü yarımbəndi ilə müəyyən edilmiş qiymətlər çərçivəsində bu Qaydanın 3.1.6-cı yarımbəndinə uyğun olaraq digər şəxslərdən alır.*

*3.9. Satınalan təşkilatlarla ərzaq məhsullarının istehsalçıları və ya satıcıları arasında bağlanılan müqavilənin nümunəvi formasını Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir.*

## *4. Yekun müddəalar*

*Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qaydadan irəli gələn maliyyələşməni “Büdcə sistemi haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən həyata keçirir.*[14]

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 30 sentyabr 2016-cı il tarixli **1049** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Azərbaycan” qəzeti, 1 oktyabr 2016-cı il, 215, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1486 )**

2. 2 noyabr 2018-ci il tarixli **324** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 3 noyabr 2018-ci il, 248 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2237)**

3. 10 aprel 2019-cu il tarixli **619** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 12 aprel 2019-cu il, 78 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 619)**

4. 03 sentyabr 2021-ci il tarixli **1439** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 04 sentyabr 2021-ci il, 187 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 9, maddə 979)**

5. 29 mart 2022-ci il tarixli **1640** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **(“Xalq” qəzeti, 30 mart 2022-ci il, 63 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 3, maddə 228)**

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 03 sentyabr 2021-ci il tarixli **1439** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 04 sentyabr 2021-ci il, 187 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 9, maddə 979**) ilə 3.2-ci bənddə "**qiymətləri**" sözü "**qiyməti, növü, miqdarı**" sözləri ilə əvəz edilmişdir.

[2] 30 sentyabr 2016-cı il tarixli **1049** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 1 oktyabr 2016-cı il, 215, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1486** ) ilə 4-cü hissədə "**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi**" sözləri **"Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyəti** " sözləri ilə əvəz edilmişdir.

10 aprel 2019-cu il tarixli **619** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 12 aprel 2019-cu il, 78 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 619**) ilə 4-cü hissədə "**Ərzaq məhsullarının tədarükü və təchizatı** " sözləri "**Aqrar tədarük və təchizat**" sözləri ilə əvəz edilmişdir.

[3] 10 aprel 2019-cu il tarixli **619** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 12 aprel 2019-cu il, 78 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 619**) ilə 4.1-ci bənd ləğv edilmişdir.

[4] 03 sentyabr 2021-ci il tarixli **1439** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 04 sentyabr 2021-ci il, 187 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 9, maddə 979**) ilə 4.2-ci bənddə "**Satınalan təşkilatların ərzaq məhsullarına olan tələbatı**" sözləri "**Ərzaq məhsullarının dövlət sifarişi ilə satın alması** " sözləri ilə əvəz edilmişdir.

[5] 03 sentyabr 2021-ci il tarixli **1439** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 04 sentyabr 2021-ci il, 187 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 9, maddə 979**) ilə "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nın 2.0.3-cü yarımbənddə "**əsas məqsədi ərzaq məhsullarının istehsalçılarından və satıcılarından belə məhsulların alınmasını, tədarük edərək satınalan təşkilatlara təqdim olunmasını**" sözləri "**ərzaq məhsullarının dövlət sifarişi ilə bağlı alqı-satqı əməliyyatlarını "Ərzaq məhsullarının dövlət sifarişi ilə satın alınması" elektron portalı vasitəsilə aparılmasını, eləcə də bu sahədə fəaliyyətin təşkili ilə bağlı digər tədbirlər görülməsini**" sözləri ilə əvəz edilmişdir, həmin yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunmuşdu və yeni məzmunda 2.0.4-cü yarımbənd əlavə edilmişdir.

[6] 03 sentyabr 2021-ci il tarixli **1439** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 04 sentyabr 2021-ci il, 187 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 9, maddə 979**) ilə "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nın 3.1.1-ci yarımbəndin birinci cümləsində "**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə təqdim edirlər** " sözləri "**elektron portalda yerləşdirirlər**" sözləri ilə əvəz edilmişdir, həmin yarımbəndin ikinci cümləsinin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz olunmuşdır və yeni məzmunda üçüncü cümlə əlavə edilmişdir.

[7] 03 sentyabr 2021-ci il tarixli **1439** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 04 sentyabr 2021-ci il, 187 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 9, maddə 979**) ilə "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nın 3.1.2-ci yarımbənddə "**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi**" sözləri "**tədarük və təchizat agenti** " sözləri ilə, "**qiymətləri**" sözü "**qiyməti, növü, miqdarı**" sözləri ilə əvəz edilmişdir.

[8] 29 mart 2022-ci il tarixli **1640** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 30 mart 2022-ci il, 63 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 3, maddə 228**) ilə "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"na yeni məzmunda 3.1.4-1-ci yarımbənd əlavə edilmişdir.

[9] 30 sentyabr 2016-cı il tarixli **1049** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 1 oktyabr 2016-cı il, 215, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1486** ) ilə 3.1.4-cü yarımbənddə **"ASAN xidmət" mərkəzinə** " sözlərindən sonra "**və ya tədarük və təchizat agentinə** " sözləri əlavə edilmişdir.

2 noyabr 2018-ci il tarixli **324** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 3 noyabr 2018-ci il, 248 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, 11, maddə 2237**) ilə "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nın 3.1.4-cü yarımbəndinin birinci cümləsində "**rayon və şəhər idarələri**" sözləri "**dövlət aqrar inkişaf mərkəzləri**" sözləri ilə əvəz edilmişdir.

30 sentyabr 2016-cı il tarixli **1049** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 1 oktyabr 2016-cı il, 215, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1486** ) ilə 3.1.5-ci bənddə "**düzəliş edilməsi üçün Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə və həmin istehsalçıya müraciət edir;**" sözləri "**düzəliş edir və bu barədə həmin istehsalçıya məlumat verir;**" sözləri ilə əvəz edilmişdir.

03 sentyabr 2021-ci il tarixli **1439** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 04 sentyabr 2021-ci il, 187 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 9, maddə 979**) ilə "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nın 3.1.3 – 3.1.6-cı yarımbəndlər yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~3.1.3. satınalma qiymətləri elanın yerləşdirildiyi vaxt üçün ərzaq məhsullarının topdansatış bazar qiymətlərindən aşağı olmamalıdır. Ərzaq məhsullarının hər bir növü üzrə satınalma qiymətini Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi müəyyən edir. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi rübdə bir dəfədən az olmayaraq ərzaq məhsullarının hər bir növü üzrə topdansatış bazar qiymətlərini müəyyən etmək üçün araşdırmalar aparırlar. Məhsulların qiyməti sonradan dəyişdikdə qiymətlərə yenidən baxılır;~~

~~3.1.4. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi hər il sentyabrın 1 dək satın alınması nəzərdə tutulan ərzaq məhsullarının hər növü üzrə yerli istehsalçıların istehsal potensialı və onlar barədə məlumatları özünün *dövlət aqrar inkişaf mərkəzləri* vasitəsilə toplayır və elektron portalda yerləşdirir. Satın alınması nəzərdə tutulan ərzaq məhsulunu satmaq arzusunda olan istehsalçı öz adını elektron portalda aşkar etmədikdə, o, özü fərdi qaydada Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə və ya Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan istənilən "ASAN xidmət" mərkəzinə *və ya tədarük və təchizat agentinə* müraciət edə bilər. Müraciət edildiyi halda həmin istehsalçı ilə bağlı məlumatlar dərhal elektron portala əlavə edilməli və müraciət edən şəxsə bu~~

~~barədə məlumat verilməlidir. Ərzaq məhsullarının istehsalçıları həmin məhsulları təqdim etmək niyyəti (öz istəyi ilə təklif etdiyi qiymət) barədə hər il sentyabrın 1-dək bilavasitə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə məlumat verir və nazirlik 2 (iki) iş günü müddətində həmin satıcının adı və təklif etdiyi məhsullar barədə məlumatı (qiymət təklif edildiyi halda qiyməti də) elektron portalda yerləşdirir;~~

~~3.1.5. tədarük və təchizat agenti elektron portalda yerləşdirilən istehsalçıların fəaliyyətinin monitorinqini aparmaq və onlardan istehsal imkanları barədə yazılı və şifahi məlumatlar almaq hüququna malikdir. Tədarük və təchizat agenti istehsalçının elektron portalda yerləşdirilən istehsal həcmini təmin etmək imkanında olmaması barədə əsaslı faktlar əldə etdikdə, elektron portalda olan məlumatlarda *düzəliş edir və bu barədə həmin istehsalçıya məlumat verir;*~~

~~3.1.6. ərzaq məhsullarının alınmasına dair bu Qaydanın 3.1.2-ci yarımbəndi ilə müəyyən edilən elanın şərtlərinə uyğun gələn təklif həmin məhsullara tələbatdan çox olmadıqda, bütün iştirakçıların təklifləri qəbul edilir;~~

[10] 03 sentyabr 2021-ci il tarixli **1439** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 04 sentyabr 2021-ci il, 187 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 9, maddə 979**) ilə "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nın 3.1.7-ci yarımbənddə "**həmin məhsullara tələbatdan çox olduqda**" sözləri "**satınalan təşkilatın həmin məhsullara tələbatından çox olduqda mikro, kiçik və orta sahibkarlıq subyektləri olan**" sözləri ilə əvəz edilmişdir.

[11] 03 sentyabr 2021-ci il tarixli **1439** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 04 sentyabr 2021-ci il, 187 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 9, maddə 979**) ilə "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nın 3.1.8-ci yarımbənd ləğv edilmişdir.

[12] 03 sentyabr 2021-ci il tarixli **1439** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 04 sentyabr 2021-ci il, 187 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 9, maddə 979**) ilə "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nın 3.2-ci bənddə "**Tədarük və təchizat agenti ilə**" sözləri "**Satınalan təşkilatlarla**" sözləri ilə, "**oktyabrın**" sözü "**noyabrın**" sözü ilə əvəz edilmişdir.

[13] 30 sentyabr 2016-cı il tarixli **1049** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 1 oktyabr 2016-cı il, 215, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1486** ) ilə 3.3-cü bənddə "**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi**" sözləri **"Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyəti** " sözləri ilə əvəz edilmişdir.

10 aprel 2019-cu il tarixli **619** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 12 aprel 2019-cu il, 78 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 619**) ilə "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nın 3.3-cü bəndində "**Ərzaq məhsullarının tədarükü və təchizatı"** sözləri "**Aqrar tədarük və təchizat** " sözləri ilə əvəz edilmişdir.

03 sentyabr 2021-ci il tarixli **1439** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 04 sentyabr 2021-ci il, 187 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 9, maddə 979**) ilə "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nın 3.3 – 3.5-ci bəndlər ləğv edilmişdir

[14] 30 sentyabr 2016-cı il tarixli **1049** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 1 oktyabr 2016-cı il, 215, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1486** ) ilə 4.3-cü bənddən "**və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin birgə**" sözləri çıxarılmışdır.

30 sentyabr 2016-cı il tarixli **1049** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti, 1 oktyabr 2016-cı il, 215, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1486** ) ilə 3.6.1-ci yarımbənddə "**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin**" sözləri **"Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyətinin** " sözləri ilə əvəz edilmişdir.

10 aprel 2019-cu il tarixli **619** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 12 aprel 2019-cu il, 78 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 4, maddə 619**) ilə "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nın 3.6.1-ci yarımbəndində **"Ərzaq məhsullarının tədarükü və təchizatı" Açıq Səhmdar Cəmiyyətinin elektron portalında**" sözləri **"elektron portalda**" sözləri ilə əvəz edilmişdir.

03 sentyabr 2021-ci il tarixli **1439** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Xalq" qəzeti, 04 sentyabr 2021-ci il, 187 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, 9, maddə 979**) ilə "Dövlət müəssisə və təşkilatları (idarələri) tərəfindən ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nın 3.6 – 3.9-cu bəndlər və 4-cü hissə yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi.

~~3.6. Tədarük və təchizat agentinin aşağıdakı öhdəlikləri vardır:~~

~~3.6.1. *elektron portalda* göstərilən ərzaq məhsullarının istehsalçıları və ya satıcıları ilə növbəti il üçün cari ilin oktyabr ayının 1-dək müqavilələrin bağlanılması;~~

~~3.6.2. satınalan təşkilatlarla növbəti il üçün cari ilin oktyabr ayının 1-dək müvafiq müqavilələrin bağlanılması;~~

~~3.6.3. növbəti ildə təqdim ediləcək ərzaq məhsullarının istehsalçılarına və ya satıcılarına bu Qaydanın 3.1.3-cü yarımbəndində müəyyən edilmiş qiymətlərə uyğun olaraq həmin məhsulların (emal olunmuş ərzaq məhsulları istisna olmaqla) dəyərinin 25 faizinin oktyabrın 30-dək avans qismində ödənilməsi;~~

~~3.6.4. ərzaq məhsullarının satıcılardan qəbul edilməsi, satınalan təşkilata təqdim edilənədək saxlanması və həmin təşkilatlarla bağlanılmış müqavilədə müəyyən edilən qaydada topdansatış şərtlərlə təhvil verilməsi;~~

~~3.6.5. müqavilə şərtlərinə uyğun məhsulların satınalan təşkilatlara təqdim edilməsi;~~

~~3.6.6. ay ərzində alınmış ərzaq məhsullarının dəyərinin (avans qismində ödənilmiş məbləğ nəzərə alınmaqla) növbəti ayın 5-dək istehsalçılara və satıcılara ödənilməsi;~~

~~3.6.7. tədarük olunan ərzaq məhsullarının korlanma və məhv olmadan sığortalanması.~~

~~3.7. Tədarük və təchizat agentinin istehsalçılardan və ya satıcılardan aldığı ərzaq məhsullarının bu Qaydanın 3.1.3-cü yarımbəndinə uyğun müəyyən edilmiş qiymətlərinə və ya bu Qaydanın 3.1.8-ci yarımbəndinə uyğun olan faktiki idxal qiymətlərinə (idxal rüsumları nəzərə alınmaqla) tətbiq edilən ticarət əlavəsi 20%-dən çox ola bilməz.~~

~~3.8. Satınalan təşkilatlarla tədarük və təchizat agenti arasında bağlanılan müqaviləyə ərzaq məhsullarının tədarük və təchizat agentinin anbarlarından təhvilverilmə cədvəli əlavə olunmalıdır və təhvil dövriliyi (istifadə müddəti bir aydan az olan məhsullar və müqavilədə başqa cür razılaşdırılan hallar istisna olmaqla) ayda bir dəfədən çox olmamalıdır. Həmin cədvəl üzrə tədarük və təchizat agenti tərəfindən satınalan təşkilatlara ərzaq məhsullarının təhvili müqabilində satınalan təşkilatlar məhsulların təhvilverilmə tarixindən ən geci sonrakı təqvim ayının 10-dək təhvil alınmış məhsulun dəyərinin aşağıda göstərilən düstura uyğun olaraq, avans ödənişi nəzərə alınmaqla tədarük və təchizat agentinə ödənilməsini təmin edir:~~

-

ÖM = ƏD+TƏ – AV

ÖM – ödənilən məbləğ,

ƏD – təhvil alınmış ərzaq məhsullarının dəyəri,

TƏ – ticarət əlavəsinin məbləği,

AV – avans məbləğinin xüsusi çəkisi.

3.9. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə tədarük və təchizat agenti arasında, satınalan təşkilatlarla tədarük və təchizat agenti arasında və tədarük və təchizat agenti ilə ərzaq məhsullarının istehsalçıları və ya satıcıları arasında bağlanılan müqavilələrin nümunəvi formaları Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir.

**4. Yekun müddəalar**

4.1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə tədarük və təchizat agenti arasında bağlanılmış müqavilənin surətini Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi 5 iş günü müddətində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edir.

4.2. Bu Qaydanın tələblərinə uyğun olaraq satınalan təşkilatlarla tədarük və təchizat agenti arasında, tədarük və təchizat agenti ilə ərzaq məhsullarının istehsalçıları və ya satıcıları arasında bağlanılan müqavilələr barədə məlumat tədarük və təchizat agenti Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi formada oktyabrın 10-dək Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinə, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edir.

4.3. Bu Qaydanın 3.3-cü bəndində nəzərdə tutulan avans məbləği, həmin məbləğin tədarük və təchizat agentinə ödənilməsi müddətləri və şərtləri Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin birgə razılığı ilə dəyişdirilə bilər.